

# Allahın Həvarisi
## Paulun macəraları

Şeril Odden tərəfindən tərtib olunub.
Rəsmlər C.R. Erlana məxsusdur.

# Allahın Həvarisi

## Paulun macəraları



Originally published in English under the title
*God’s Apostle: The Adventures of Paul* by Cheryl Odden
First edition Text Copyright 2010
Second edition Text Copyright 2015
Illustrations Copyright 2010

© 2017 for the Azeri edition.
Translated by permission. All rights reserved.

Azərbaycan dilində nəşr © 2017
İcazə ilə nəşr olunmuşdur. Bütün müəlliflik hüquqları qorunur.



Bütün yaş dövründə olan
Allahın davamçıları üçün

# Ön söz

Həvari Paulun müjdəçilik xidməti imanlı cəmiyyət tarixinə böyük bəhrələr gətirdi. O, Məsih barədə insanlara danışmaq üçün qədim Roma imperiyasının hər yerinə səyahət edir, minlərlə kilometr məsafə qət edirdi. Amma Paul heç də həmişə İsanın davamçısı olmamışdı. Əvvəllər o, imanlı cəmiyyətin ən qəddar düşmənlərindən biri idi.

Paul doğulanda adını Şaul qoymuşdular. O, farisey olub ailəsi Binyamin qəbiləsindən idi. Ona Əhdi-Ətiqdə haqqında söz açılan İsrailin birinci padşahı Şaulun şərəfinə ad qoyulmuşdu. Bəzi mənbələrə əsasən Paulun Binyamin qəbiləsindən olan valideynləri müharibə vaxtı məcburi yaşayış yerlərini tərk etmiş hərbi əsirlər olmuşdu. Onlar Roma vətəndaşının qulları olub Tarsusda məskunlaşmışdılar. Valideynləri azadlığa çıxanda Roma vətəndaşlığını qəbul etmişdilər. Bu amil sonralar Paulun xidmətində dəfələrlə köməyinə çatmışdı.

Nəhayət, gənc Paul (o vaxtlar onu hələ də Şaul adlandırırdılar) Yerusəlimə gəldi ki, Ali Şuranın üzvü Qamlieldən təlim alsın. Həvarilərin həbs olunduğu və Ali Şuranın qarşısına gətirildiyi vaxt Luka Həvarilərin İşləri kitabının başlanğıcında Qamliel barədə qeyd edir. Ali Şuranın bir çox üzvü İsanın Məsih olduğunu bəyan edən dini hərəkata son qoymaq istəyirdi. Qamliel isə Ali Şurada önə çıxıb dedi: "... bu adamlardan əl çəkin və azad buraxın. Əgər bu hərəkat, bu iş insandandırsa, məhv olub gedəcək. Yox, əgər Allahdandırsa, bu adamların işini məhv edə bilməzsiniz. Allaha qarşı çıxanların vəziyyətinə belə, düşə bilərsiniz" (Həvarilərin İşləri 5:38–39). Amma Paul müəlliminin məsləhətinə qulaq asmadı. O, Stefanın daşlanaraq öldürülməsində iştirak etdi (Həvarilərin İşləri 7:58). Stefanın ölümündən sonra Şaul İsanın davamçılarını təqib edir, onları zindana salırdı.

Paulun Məsihin davamçısı kimi həyatı Həvarilərin İşləri kitabının 16-cı fəslində təsvir olunub. Paulun hekayəsi onun həbs edilməsi və Roma imperatorunun məhkəməsini gözləməklə

bitir. Paul Əhdi-Cədidə daxil olan ondan artıq məktubun müəllifidir. Onun məktubları təkcə İsa Məsihin həyatı, ölümü və dirilməsi barədə danışmır, həm də bizə öyrədir ki, Məsih uğrunda əzablar məsihçinin həyatının bir hissəsi olub Müjdənin yayılmasına kömək edir.

Dəməşqə gedən yolda möcüzəli şəkildə imana gələn Paul Ərəbistana üz tutur. Deyilənə görə, onu burada Rəbb öyrədir. Bəzilərinin fikrincə, Məsihin peyğəmbərlik təlimini təsdiqləmək üçün Allah bu vaxtdan istifadə edir. Bundan sonra Paul öz doğma şəhərinə qayıdır. Paulun Yerusəlimə qayıtmasına imanlılar böyük ehtiyatla yanaşırlar. Onlar inana bilmirdilər ki, məbədin amansız təqibçisi indi Məsihin davamçılarından birinə çevrilib. Sonra Paul Yerusəlimdən səyahətə çıxır. O getdiyi hər yerdə insanlara İsa Məsihə iman sayəsində hər kəsin əldə edə biləcəyi təmənnasız xilasdan danışır.

Paul Müqəddəs Kitabda əzab çəkən məsihçinin bir nümunəsidir. Rəbb ona xəbərdarlıq etmişdi ki, o, Məsihin ardınca gedən kimi çox böyük əziyyətlərlə üzləşəcək (Həvarilərin İşləri 9:16). Elə də oldu. Paul müjdəçilik səfərlərinin hər birində təqiblərlə üzləşirdi. Məsihə olan alovlu məhəbbəti çox vaxt onunla yəhudi dini rəhbərləri arasında münaqişələr yaradırdı. Onlar özlərindən biri olan fariseyin və məsihçilərin keçmiş təqibçisinin indi İsanın Məsih olduğuna inandığını qəbul edə bilmirdilər. Paulun Məsih barədə həm yəhudilərə, həm də qeyri-yəhudilərə danışması onları daha da qəzəbləndirirdi.

Yəhudilərin Paula qarşı olan nifrəti o yerə gəlib çatdı ki, onlar bir neçə dəfə onu öldürməyə cəhd etdilər. Paulun orada olması camaat arasında qarışıqlıq yaradırdı. Onun ətrafındakı yəhudilər bir gün elə çaxnaşma saldılar ki, hətta onu həbs etdilər. Roma vətəndaşlığı Müjdəni yayması işində Paulun çox köməyinə gəlirdi. Roma vətəndaşlığı ona imkan verirdi ki, Roma valisi Feliks, Hirod Aqrippa və sonda Roma imperatoru Neron kimi nüfuzlu şəxslərin qarşısına çıxa bilsin. Roma vətəndaşlığı, şübhəsiz ki, dəfələrlə onun həyatını xilas etdi,

amma ən əsası Paulun müjdəçilik səfərləri üçün geniş imkan yaratdı.

Hətta buna görə imperator Neron ilk dəfə məhkəmədə Paulu azadlığa buraxdı. Amma sonra ikinci dəfə Neronun qarşısına çıxanda Məsihin davamçıları artıq romalılar üçün "boğazda tıx"a çevrilmişdilər. Neron 64-cü ildə Romada baş vermiş yanğında məsihçiləri və Paulu ittiham etdi. Tarixçilər təsdiqləyir ki, Neron həm də romalı vətəndaşlar arasında "Müjdə alovu"nun yayılmasında məsihçiləri günahlandırırdı. Qədim məsihçi əlyazmaları göstərir ki, Neronun imperatorluğunun sonuncu ilində, yəni b.e-nın 69-cu ilində Paulun Romadan kənarda, Ostiyaya gedən yolda boynu vurulmuşdu.

Həvari Paulun ən parlaq xüsusiyyəti Allahın onun həyatı üçün olan çağırışı dəqiq anlaması idi. O, Roma vətəndaşlığından heç nəyi, hətta öz həyatını belə əsirgəmədən çox məharətlə Müjdənin yayılmasında istifadə etmişdi. Müjdəni hər yerdə yaymaq onun üçün hər şeydən, hətta öz rahatlığından və rəhbərlərə tabeçilikdən də üstün idi. Hərçənd, Paul insanları "başçılıq edən hakimiyyətlərə tabe olmağa" çağırırdı (Romalılara 13:1). Lakin Dəməşqdə həm yəhudi, həm də Roma rəhbərliklərindən canını qurtarmaqla göstərdi ki, məsələ Müjdəni yaymaq işinə gəldikdə Allahın Padşahlığı onun üçün hər şeydən üstündür. Müjdəni yaymaq istəyində sədd tanımayan Paul artıq işinin sona çatdığını bilirdi: "Çünki qanım artıq içmə təqdimi kimi tökülmək üzrədir. Artıq ayrılma zamanım gəldi. Mən yaxşı mübarizə aparmışam, yolumu sona çatdırdım, imanı saxladım. İndi salehlik tacı mənim üçün hazır durur. Ədalətli Hakim olan Rəbb qiyamət günü onu mənə — yalnız mənə deyil, Onun zühuruna can atanların hamısına verəcək" (2 Timoteyə 4:6–8).

Kitabların əksəriyyəti diqqəti Paulun müjdəçilik səfərlərinə yönəldir, amma bu kitab Allahın cəsur həvarisinin Məsih uğrunda çəkdiyi əzab və sınaqlardan danışır. Bu kitabda çox şey xırdalığı ilə göstərilmir. Burada Müjdəni həm yəhudilərə, həm də qeyri-yəhudilərə yaymaq üçün İsa Məsihlə üzbəüz görüşənədək əvvəllər Onun davamçılarını təqib edən bir insanın məğlubedilməz

ruhu təsvir edilir. Onun ürəyi artıq nifrətlə yox, bütün məsihçilərə və Allahın seçilmiş xalqı olan yəhudilərə qarşı İsa Məsihin məhəbbəti ilə dolub daşırdı. Müjdəni yaymaq Paula saysız-hesabsız əziyyət gətirdi. Lakin əvəzində bu əziyyətlər daha çox qapılar açaraq Xoş Xəbərin yayılmasına kömək etdi.

Uşaqlar bunu bilməlidirlər: İsa bizə dəfələrlə xəbərdarlıq etmişdi ki, Onun arxasınca getmək istəyən şəxs mütləq təqiblərlə üzləşəcək (Luka 21:12, Yəhya 15:20). Təqiblər məsihçi həyatının ayrılmaz bir hissəsidir. Biz özümüz təqibləri axtarmırıq və istəmirik, amma İsa Məsihin Xoş Xəbərini insanlara cəsarətlə yayanda onlar qarşımıza çıxır. Bu, həm də Müjdəyə qarşı olanlar üçün bizi dua etməyə səsləyən bir ümid hekayəsidir. Qoy Paulun Məsih uğrunda əzablarının hekayəsi, iman uğrunda yaxşı mübarizə aparmaqdan ötrü Məsihin vəd etdiyi güc ilə sona qədər imanı saxlamaq üçün sizi və uşaqlarınızı ruhlandırsın (1 Korinflilərə 2:3–5, 2 Timoteyə 4:7)!



*Şaul atını daşlı yollarla çapa-çapa gedirdi.*

O, arxaya çevrilib onunla birgə Dəməşq şəhərinə gedən kişilərə baxdı və özündən razı halda yəhərdən asılmış kisəsini tumarladı.

*“Hə! — Şaul düşündü, — nəhayət, biz Məsihin davamçılarından birdəfəlik canımızı qurtaracağıq!”*

Şaul və onun adamları Yerusəlimin dörd bir yanında məsihçiləri təqib edir, zindana atırdı. O, zorla məsihçilərin evlərinə girir, qəddarcasına onları həbs edirdi. Bu xəbəri eşidən Məsihin davamçıları Dəməşqə qaçırdılar.



Şaul Məsihin davamçılarını Dəməşqdə həbs etmək üçün ona verilən sənədlə dolu kisəyə baxdı.

O, öz-özünə düşündü: *“Daha onlar təhlükəsizlikdə olmayacaqlar. Yox, indi onlar uzun müddət təhlükəsizlikdə olmayacaqlar...”*





*Şaul və onun adamları yeddigünlük səfərdən sonra artıq yorulub əldən düşmüşdülər. Onların üzündən tər damla-damla axırdı.*

Şaul uzaqdan şəhəri görəndə onlara dedi: “Çatmağa çox az qalıb!”

Elə bu an atlar kişnəməyə və fınxırmağa başladı.

Şaul atını tumarlayaraq dedi: “Sakit ol!”

Birdən göydən gözqamaşdırıcı bir işıq saçdı.

İşıqdan səs gəldi: “Şaul! Şaul! Niyə Məni təqib edirsən?!”





*Şaul yerə yıxıldı. O, işığa baxmağa çalışaraq gözlərini qıydı.*

“S-sən k-kimsən, ya Rəbb?” — deyə Şaul kəkələyə-kəkələyə soruşdu.

Şaulun arxasınca gələn adamlar təəccübləndilər. Onlar Şaulu heç vaxt belə çaşqınlıq içində görməmişdilər.

“Mən sənin təqib etdiyin İsayam”.

“*Necə?!* — deyə Şaul təəccübləndi. O, tamamilə özünü itirdi. — *İsa doğrudanmı Allahdır?*”

“Ayağa dur və Dəməşqə get. Orada nə etmək lazım olduğu sənə deyiləcək”.

İşıq və səs yoxa çıxdı. Şaul ayağa qalxdı, amma elə o dəqiqə gözlərinin tutulduğunu başa düşdü.







*Dəməşqdə Xananya adlı bir məsihçi gündəlik işi ilə məşğul olarkən birdən Rəbb onunla danışdı:*

“Xananya, Yəhudanın evinə get və orada Şaul adlı adamı soruş. Mən istəyirəm ki, sən əllərini onun üzərinə qoyub onun gözlərini açasan”.

“Axı Rəbb, — deyə Xananya cavab verdi, — Şaul bura gəlib ki, Sənin davamçılarını həbs etsin!”

“Sən ora getməlisən. Mən onu seçmişəm ki, o, yəhudilərə, qeyri-yəhudilərə və hətta padşahlara Mənim haqqımda danışsın. Bu işdə onun nə qədər əzab çəkəcəyini Mən ona göstərəcəyəm”.

Xananya Allahın dediyi kimi etdi.



*Artıq Şaul başqa bir insan idi. Onun qaşqabaqlı çöhrəsini indi təbəssüm əvəz etmişdi.*

Onun qəzəbi mərhəmətə çevrilmişdi. Bir vaxtlar məsihçilərin ünvanına söylədiyi hədə-qorxulu kobud səsi indi Allahın məhəbbətini bəyan edirdi.

O, yəhudi xalqına İsa barədə danışmağa tələsirdi.

Dəməşqdəki yəhudilər təəccüblənərək deyirdilər: “Bu, İsanın davamçılarını həbs edən həmin adam deyilmi?”



“Məgər o, İsanın davamçılarını həbs etmək üçün gəlməyibmi?” — deyə onlar bir-biriləri ilə pıçıldaşırdılar.

Paulun İsanın Allah Oğlu olduğuna iman etməsi onları çox təəccübləndirdi. Yəhudilər Paulun danışdıqlarını xoşlamadıqları üçün ona qarşı sui-qəsd hazırladılar.





*Şaul yəhudilərin onu öldürmək istədiklərini eşidəndə bildi ki, onun getmək vaxtı çatıb. Amma romalı casuslar və yəhudilər şəhər darvazalarında onu gözləyirdilər.*

Gecə yarısı imanlılar Şaulu bir səbətin içinə qoyub şəhər divarından aşağı endirdilər. İndi Şaul bir müddət təhlükəsizlikdə idi.

*Yerusəlimə qayıdanda Şaul Məsihin davamçılarını axtarmağa başladı. Onlar dedilər: “O bizi nə üçün axtarır?”*

Barnaba adlı bir imanlı İsanın Şaulla necə danışdığını və Ona necə iman etdiyini hamıya danışdı. İmanlılar onları təqib edən insanın ürəyinin dəyişməsinə görə Allaha şükür etdilər.



Amma Şaul narahat idi. O, böyük həvəslə insanlara İsa haqqında danışmaq istəyirdi.

Ona görə də Şaul Yerusəlimi tərk etdi. O, dənizləri keçərək torpaqları gəzə-gəzə qarşısına çıxan hər kəsə öz imanı barədə danışırdı. Tezliklə Şaul Paul adı ilə tanınmağa başladı. Onun adı kimi xidməti də dəyişdi. İndi Paul təkcə yəhudilərə deyil, qeyri-yəhudilərə də İsa haqqında şəhadət edirdi.



*Paul hara gedirdisə, ətrafına böyük izdiham toplaşırdı. O, hətta öz təqibçilərinin də diqqətini cəlb edirdi.*

Paul Antakyada həvari yəhudilərin ibadət etdiyi sinaqoqlarda Müjdəni yayırdı. Onun səsi küçədə də eşidilirdi.

"İsaya iman etməklə hər kəs xilas olur!" — deyə Paul bəyan edirdi. Növbəti həftə, demək olar ki, Paulun dediklərinə qulaq asmaq üçün bütün şəhər sinaqoqa toplaşmışdı.

"O, özünü kim hesab edir? Camaatı dinimizdən uzaqlaşdırır!" — deyə Paula paxıllıq edən yəhudi dini rəhbərləri deyinməyə başladılar. Onlar həmin gün qərara gəldilər ki, şəhəri bu çaxnaşma yaradan adamdan xilas etsinlər.





*Paxıl yəhudi dini rəhbərləri Paula pislik etmək barədə götür-qoy edirdilər. Bu vaxt camaat Pauldan eşitdiklərini başqalarına danışırdılar.*

Külək lələkləri götürüb apardığı kimi, Müjdə də asanlıqla daha uzaqlara yayılmağa başladı. Heç kim, hətta qəzəbli din və şəhər rəhbərləri də onun qarşısını ala bilmədilər. Şəhər rəhbərlərindən biri qəzəblə qışqırdı: “Onu tutun!”

Birdən izdiham Paula tərəf yönəldi. Onu tutub şəhər darvazasından çıxararaq kənara apardılar. Amma bu, nə Paula, nə də onun dostlarına mane oldu. O, başqa bir şəhərə getdi. Paulu hər nə qədər çox təqib edirdilərsə, Müjdə də bir o qədər çox yayılırdı.









*Paul başqa allahlara ibadət edənlərə də Müjdəni danışırdı. Onlar da Paula əngəl törədirdilər. Bir dəfə Listrada Paul ayağından şikəst olan bir adamı sağaltdı.*

Bu möcüzəyə şahid olan insanlar qışqırdılar: “Sən Allahsan! Biz sənə səcdə etmək istəyirik!”

“Biz allahlar deyilik! — deyə Paul izdihamın içərisində qışqırdı, — Var olan Allaha tərəf dönün!”

Amma insanlar ona qulaq asmaq istəmədilər.

Yəhudilərdən ibarət bir qrup adam qışqırdı: “Onları daşlayın!” Bunlar o biri şəhərlərdə Paulu təqib edən elə həmin yəhudilər idi. Həvari Paulun üstünə daşlar yağmağa başladı. Onu şəhərdən kənara sürüdülər və öldüyünü düşünüb çıxıb getdilər. Amma Paul ölməmişdi. O, ayağa durub üstündəki tozu çırpdı və başqa şəhərə getdi.

*Bir dəfə Paul gecə yatarkən yuxu gördü. Bir kişi ondan xahiş edirdi: “Makedoniyaya yanımıza gəl və bizə kömək et!”*

Paul yuxudan oyanıb Makedoniyaya yola düşdü və Filipi şəhərində Müjdəni yaydı. Bu şəhərdə çox adam İsaya iman etdi. Onların içərisində qulluqçu bir qız var idi. O, insanlara gələcəyi deməklə öz ağalarına böyük gəlir gətirirdi. Artıq məsihçi olduğu üçün o, falçılıq etmirdi. Qızın ağaları bu vəziyyətdən çox narazı idilər. Onlar Paulu tutub bazar meydanında romalı rəhbərlərə təhvil verdilər. “Bu adamlar qarışıqlıq salıblar”, — deyə qulluqçu qızın ağaları şikayətləndilər. Romalılar Paulu tutub zindana atdılar.





*Həmin gecə Paul daş döşəmənin üstündə oturmuşdu, ayaqları isə zəncirlə divara bağlanmışdı. O, nə ağlayır, nə də şikayət edirdi.*

Əksinə, Paul və onun dostu Sila Allaha izzət ilahisi oxuyur və dua edirdi. Digər məhbuslar isə onlara qulaq asırdılar.

Birdən zindan titrəməyə başladı. Məhbusların ayaqlarındakı zəncirlər qırıldı və zindanın qapıları taybatay açıldı.

“Biz azadıq!” — deyə məhbuslar sevindilər.

“Heç yerə getməyin!” — Paul ciddi şəkildə onlara müraciət etdi.

Məhbuslar ona qulaq asdılar.









*Zəlzələdən oyanan baş mühafizəçi qapıların açıq olduğunu görüb qorxdu.*

“Yəqin ki, bütün məhbuslar qaçıb gediblər, mənim üçün çox pis olacaq!” — deyə qorxudan titrəməyə başladı, amma dərhal tanış bir səs eşitdi.

“Biz hamımız buradayıq!” — Paul dedi.

Baş mühafizəçi məhbusların qaçıb getmədiyini görüb təəccübləndi. O, Pauldan soruşdu: “Xilas olmaq üçün nə etməliyəm?” O da İsanın davamçısı olmaq istəyirdi. Ertəsi gün Paul və Sila zindandan azadlığa buraxıldı.



Yerusəlimə qayıdanda Paul yəhudilərin ibadət etdiyi məbədə getdi. Lakin danışdığı vaxt birdən səs-küy qopdu.



“O, məbədi murdarlayıb! — deyə qeyri-yəhudiləri məbədə gətirməklə yəhudi qanunlarını pozmaqda Paulu günahlandıran yəhudilərdən biri uca səslə qışqırdı. — Onu tutun!”

Adamlar Paulu tutub döydülər. Şəhərdə çaxnaşma başladı.

Bu xəbər romalı rəhbərlərə gedib çatdı. Dərhal 200 əsgər məbədə daxil oldu. Romalı əsgərlər Paulu götürüb zindana apararkən izdiham qışqırırdı: “Qoy rədd olub getsin!”

Beləcə Paul yenidən zindana düşdü. Amma Allahın onun üçün planı var idi.



*Paul zindanda olarkən 40-dan çox yəhudi yığışıb onu necə öldürməyi götür-qoy edirdi.*

“Onu öldürməyənədək biz heç nə yeməyəcəyik”, — deyə onlar and içdilər.

Bu sui-qəsd planından Paulun bacısı oğlu xəbər tutdu. O, dayısına bunu çatdırmaq üçün Roma həbsxanasına getdi. Tezliklə sui-qəsd planı barədə romalı əsgərlər də bildilər.







*Paulun həyatını xilas etmək üçün gecənin qaranlığında bir neçə yüz romalı əsgər onu Qeysəriyyə şəhərinə Feliks adlı valinin yanına apardı. İndi Paul təhlükəsizlikdə idi, amma bu, çox çəkməyəcəkdi.*

Paul Feliksə İsa barədə danışdı. O, həm də Feliksin yanında qonaq olan Hiroda da İsa haqqında danışdı.

Paul bilirdi ki, onu çox sınaqlar gözləyir. Əgər romalılar məhkəmədə sorğu-sual olunmaq üçün onu geriyə — Yerusəlimə qaytarsalar, orada yəqin ki, yəhudilər ona hücum edəcəkdilər. Ona görə də Paul xahiş etdi ki, onu Roma şəhərinə aparsınlar və Neron adlı Roma imperatorunun qarşısına çıxmasına icazə versinlər.

*Paul Romaya gedən gəmiyə mindi. Gəmi dənizdə üzərkən bir neçə gün çəkən güclü fırtınaya düşdü.*

Hamı, hətta Paul gəminin fırtınalı dənizdə batacağından qorxurdu. Amma bir gün gecə Rəbbin mələyi ona göründü.

Mələk dedi: “Paul, qorxma. Sən Neronun qarşısına çıxmaq üçün Romaya gedib çatacaqsan. Hamınız sağ qalacaqsınız”.

Paul mələyin sözlərini gəmi heyətinə çatdırdı: “Sizin başınızdan bir tük belə əskik olmayacaq”.

Gəmi zədələndi. Lakin mələyin dediyi kimi, hamı sağ-salamat Maltanın sahilinə çıxdı.









*Paul Maltada gəmi heyətinin islanmış paltarlarını qurutmaq üçün kol-kos yığırdı ki, ocağa atsın. O, bir dəstə çırpını ocağa atanda alovdan bir gürzə ilan çıxıb əlini dişlədi.*

"Uff!" — deyə Paul əlinə yapışmış ilanı görəndə qışqırdı.

Adanın sakinləri Paulun ətrafına toplaşdılar. Onlara elə gəldi ki, Paul öləcək, amma o, sağ qaldı.

"Sən yəqin ki, allahsan!" — deyə onlar qışqırdılar.

Beləcə Paulun əzabları yenə ona imkan verdi ki, insanlara həqiqi Allahdan danışsın.

Paul adamlara Məsihdən bəhs edə-edə, xəstələrə şəfa verə-verə Malta adasında üç ay vaxt keçirdi. Nəhayət, adaya yan alan başqa bir gəmi onu götürüb Romaya apardı.

*Romaya çatanda Paul Neronun məhkəməsinə çıxmaq üçün iki il gözlədi.*

Bu müddət ərzində o, vaxtını boş yerə itirmədi. Yəhudilərə və ona qulaq asan hər kəsə Məsih barədə danışdı. Paulun zəncirlərlə bağlandığı zindanın mühafizəçiləri də İsa haqqında eşitdilər. Tezliklə Paul Neronun qarşısına çıxdı və imperator onu azad etdi.

Paul İsa barədə insanlara danışmağı dayandırmadı və qısa bir vaxtda yenə həbs olundu. Roma imperatoru Neron məsihçiləri, eləcə də Paulu Roma şəhərini yandırmaqda ittiham etdi. Neron öz hakimiyyətinin sonuncu ilində — b.e. 69-cu ilində Paulu edam etdirdi.







*Paul İsanın məhəbbətini insanlara çatdırmaq üçün həmişə imkan tapırdı. Bu da çox vaxt onun həyatında sınaqlara və çətinliklərə səbəb olurdu.*

Siz də başqalarına İsa barədə danışdığınıza görə sınaqlara və çətinliklərə məruz qala bilərsiniz. Paulun həyatında olduğu kimi, bu çətinliklər sizə də heç vaxt bizi tərk etməyəcəyini və *həmişə* yanımızda olacağını vəd edən İsanın məhəbbətindən söz açmağa imkan yarada bilər.



## Düşünmək və müzakirə etmək üçün vəsaitlər

*“Lakin Rəbb köməyimə gəlib mənə güc verdi ki, vəz mənim vasitəmlə tam elan edilsin və onu bütün millətlər eşitsin. Mən aslanın ağzından xilas oldum. Rəbb məni hər cür pis əməldən qurtaracaq və Öz Səmavi Padşahlığı üçün xilas edəcək. Ona əbədi olaraq izzət olsun. Amin!”*

2 Timoteyə 4:17–18

Yəhudilər və başqa allahlara səcdə edənlər Paulu həbs etmək və öldürmək istəyəndə bu, onun İsa barədə daha çox adama danışmasına necə kömək etdi?

Paul sınaqlarla üzləşəndə Rəbb ona necə kömək etdi?

Paul həbs olunandan, döyüləndən və hətta imperator Neronun (Aslanın ağzı adlanırdı) qarşısına çıxandan sonra nəyə görə Allahı izzətləndirməyə davam etdi?

Kiməsə İsa haqqında danışdığınız üçün hansısa çətinliklə üzləşmisinizmi? Əgər olubsa, siz o vaxt nə etdiniz? İndi Paulun hekayəsini oxuyandan sonra gələn dəfə nə edəcəyiniz barədə düşünün.

İsa haqqında danışmaq istədiyiniz dostlarınızın siyahısını tutun. Allahdan xahiş edin ki, sizi dinləmək və İsanı şəxsi Xilaskar və Rəbb kimi qəbul etmələri üçün onların ürəklərini hazırlasın.

## Dua:

Əziz İsa,

Müjdəni yaymaq Paula çətinliklər törətsə də, onun bu nümunəsinə görə Sənə təşəkkür edirəm. Sənə minnətdaram, çünki onun həyatı vasitəsilə mənə göstərdin ki, bu çətinliklər insanlara Sənin barədə danışmaq üçün necə imkanlar yarada bilər. Mənə kömək et ki, dostlarıma Sənin haqqında danışanda Paul kimi cəsur olum. İnsanlar Sənin barəndə eşitmək istəməyəndə və mənim üçün çətinliklər törədəndə mənə yardım et ki, Sənə izzət gətirə bilim. Həmişə bizimlə olduğun və heç vaxt bizi tərk etmədiyin üçün Sənə təşəkkür edirəm.

**İsanın adı ilə, Amin.**

Şaul atını daşlı yollarla çapa-çapa gedirdi. O, arxaya çevrilib onunla birgə Dəməşq şəhərinə gedən kişilərə baxdı və özündən razı halda yəhərdən asılmış kisəsini tumarladı.

*"Hə!"* — Şaul düşündü. — *"Nəhayət, biz Məsihin davamçılarından birdəfəlik canımızı qurtaracağıq!"*

Şaul və onun adamları Yerusəlimin dörd bir yanında məsihçiləri təqib edib zindana atırdı. O, zorla məsihçilərin evlərinə girir, qəddarcasına onları həbs edirdi. Bu xəbəri eşidən Məsihin davamçıları Dəməşqə qaçırdılar. Şaul yolda gedərkən qəflətən bir işıq gördü. Bu, İsa idi.

Sonralar Paul adlanan Şaul indi başqa bir insandır. O, artıq məsihçiləri təqib edib onları zindana atmır. O, bir-bir ölkələrə səyahət edir, insanlara İsa Məsihin Allah Oğlu olduğunu danışır.

Paulun danışdıqları adamların çoxunun xoşuna gəlmirdi. Onu həbs etməyə, hətta daşlayıb öldürməyə çalışırdılar. Amma bütün bu sınaqlar cəsur həvarini yolundan saxlamadı. O, İsa Məsih barədə danışmağa davam etdi. Təqiblər isə Müjdənin daha uzaqlara yayılmasına səbəb oldu.

Sizin indi oxuyacağınız hekayə Paulun müjdəçilik səfərlərindən söz açmır. Bu, Paulun bir çox xalqa Xoş Xəbəri çatdırmaq uğrunda yaşadığı təqib, sınaq, əziyyətlər, eləcə də hər bir çətinliyin cəsur müjdəçi qarşısında Məsihdən danışmaq üçün açdığı yeni imkanlar haqqında hekayədir.

İsa Onun adı uğrunda əzab çəkməyin məsihçi həyatının bir hissəsi olması barədə Öz şagirdlərinə xəbərdarlıq etmişdi. Biz əziyyətlərlə üzləşmək istəmirik, amma onlar bizim həyatımızda baş verir. Qoy Paulun Məsih uğrunda əzablarının hekayəsi, iman uğrunda yaxşı mübarizə aparmaqdan ötrü Məsihin vəd etdiyi güc ilə sona qədər imanı saxlamaq üçün sizi və uşaqlarınızı ruhlandırsın (2 Timoteyə 4:7)!